***İlham ƏLİZADƏ*** *

# AZƏRBAYCAN RESPUBLİKASİNIN SOSİAL-İQTİSADİ İNKİŞAFINA BP VƏ TƏRƏFDAŞLARI İLƏ ƏMƏKDAŞLIĞIN TƏSİRİ

**Açar sözlər:** Neft strategiyası, əməliyyatlar və layihələr, davamlı inkişaf, ümumdaxili məhsul, büdcə gəlirləri, bank aktivləri,vergi gəlirləri, əhalinin gəlirləri

**Key words:** Oil strategy, operations and projects, sustainability, gross domestic product, state budget revenues, tax revenues, bank assets,

**Ключевые слова:** Нефтянаястратегия, операции и проекты, продолжительное развитие, внутренной валовой продукт, поступлений в государственной бюджет, увиличение налоговых отчислений, банковские активы, депозиты населения

Sovetlər birliyinin çökməsi nəticəsində müstəqillik əldə etmiş Azərbaycan və Qazaxıstanın energi ehtiyatlarının xarici neft şirkətləri tərəfindən istismara cəlb edilməsi ilə dünya neft-qaz sənayesi yeni bir mərhələyə daxil oldu. 1994-cü ilin 20 sentyabrında BP və tərəfdaşlarının "Əsrin müqaviləsi"ni imzalaması Azərbaycanın bir müstəqil dövlət kimi tanınmasına, onun müstəqilliyinin və dövlətçiliyinin möhkəmlənməsinə, dünya iqtisadi sisteminə inteqrasiya olunmasına şərait yaratdı. Azərbaycan öz təbii sərvətlərinn sahibi kimi BP və tərəfdaşları ilə yaratdığı əməkdaşlıq sayəsində Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsini təmin etdi.

1991-1995-ci illərdə Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi həyatını əhatə edən uzun müddətli tənəzzüldən sonra "Əsrin müqaviləsi"nin həyata keçirilməsinə başlanması ilə ölkə iqtisadiyyatında dirçəlişin ilk təzahürləri özünü göstərdi. BP və tərəfdaşlarının səyləri ilə "Çıraq1" yatağından ilkin neftin hasil olunması, Bakı-Novorossiysk, daha sonra isə Bakı-Supsa kəmərləri ilə neft ixracının başlanması iqtisadiyyata ilk töhvələrini verdi. Bu tarixi əməkdaşlıq Azərbaycanın sosial-iqtisadi inkişafına iki istiqamətdə öz təsirini göstərdi. Birinci istiqamət BP və tərəfdaşları ilə əməkdaşlığın bütövlükdə ölkənin sosial-iqtisadi inkişafında baş vermiş dəyişiklikləri, ikinci istiqamət isə regional səviyyədə, yəni neft-qaz ixrac

* **Əlizadə İlham** - AMEA Gəncə Bölməsinin doktorantı,email:aliyegence@mail.ru





boru kəmərlərinin təsirinə məruz qalmış icmalarda və Azərbaycanın təhsil, səhiyyə, mədəniyyət və idman həyatında BP və tərəfdaşlarının icra etdiyi sosial layihələri əhatə edir.

Azərbaycanın müstəqilliyinin və beynəlxalq mövqeyinin möhkəmlənməsinin onun iqtisadi inkişafından asılı olmasını lazımınca qiymətləndirən Heydər Əliyev xarici neft şirkətləri ilə başlanan əməkdaşlığın verdiyi imkanlardan istifadə edərək iqtisadi islahatların aparılmasına, bazar iqtisadiyyatı prinsiplərinin tətbiq edilməsinin sürətləndirilməsinə xidmət edən əsaslı tədbirlər həyata keçirməyə başladı. Bu sahədə Prezident H.Əliyevin "Azərbaycan Respublikasında xarici ticarətin səmərəliliyinin artırılması tədbirləri haqqında" imzaladığı 10 yanvar 1994-cü il tarixli fərmanının, 1992-ci ildə qəbul edilmiş "Xarici investisiyaların qorunması haqqında", 1995-ci ildə qəbul edilmiş "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanunlarının əhəmiyyətini qeyd etmək lazımdır. Fərman bazar iqtisadiyyatının formalaşdığı şəraitdə respublikanın ixrac potensialının səmərəliliyini artırmaq və daxili bazarın qorunmasını gücləndirmək məqsədilə ciddi addımların atılmasını nəzərdə tuturdu. İnvestorların hüquqlarının qorunmasına xidmət edən qanunda isə sərmayəçilərin əmlakın özəlləşdirilməsində iştirakı, mülkiyyət hüququnun qorunması, onların zərərlərinin kompensasiyası kimi mühüm məsələlər öz əksini tapmışdır. İnvestisiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi, investisiyanın maliyyələşmə mənbələri, sərmayəçilərin məsuliyyəti və beynəlxalq müqavilələrdə iştirakı kimi məsələlərin nizamlanmasının hüquqi bazası yaradıldı. İqtisadi liberallaşmanın sərbəstləşdirilməsi tədbirləri Azərbaycanı inzibati-amirlik sisteminin asılılığından azad etdi (1.s.401).

BP və tərəfdaş şirkətlərin mürəkkəb ictimai, siyasi, iqtisadi durumda olan bir ölkə ilə iri neft-qaz layihələrinin icrasında əməkdaşlığa başlaması Azərbaycana beynəlxalq səviyyədə inam yaratdı. ABŞ və Böyük Britaniya kimi dövlətlərin dəstək verdiyi Azərbaycan Respublikasında aparılan ardıcıl iqtisadi islahatlar da ölkənin imicinin yaxşılaşmasına təkan verdi.Məhz əldə olunan bu uğurların nəticəsi idi ki, Beynəlxalq Valyuta Fondu (BVF), Dünya Bankı (DB) kimi beynəlxalq təşkilatlar bu islahatlara dəstək olmaq məqsədilə Azərbaycana maliyyə yardımı göstərməyə başladılar. Çox keçmədi ki, BP və tərəfdaşları ilə əməkdaşlığın və həyata keçirilən islahatların nəticəsi özünü göstərməyə başladı. Belə ki, 1994-cü ildə

əgər ölkədə inflyasiya 1800 faiz təşkil edirdisə, artıq 1996-cı ildə bu göstərici 6,8 faiz səviyyəsinə enmişdi.Manatın ABŞ dollarına nisbətdə ucuzlaşması 1994-cü ildə 1200 faiz təşkil etsə də cəmi iki il sonra manat dollara qarşı 8 faiz möhkəmlənmişdi. Ölkədə ümumdaxili məhsulun həcminin azalmasının qarşısı alındı. Belə ki, 1996-cı ildə ÜDM-un artım surəti 1,3 faiz, 1997-ci ildə 5,8 faiz, 1998-2003-cü illərdə orta hesabla 10 faiz təşkil etmiş, 2004-2011-ci illərdə isə 3 dəfə artmışdı (2, s.788).

"Əsrin müqaviləsi"ndən sonra 1995-ci ildən başlayaraq yeni neft müqavilələrin imzalanması, Azərbaycan neftinin kəşfiyyatı və hasilatına Fransa, Rusiya, İran, Yaponiya və İtaliya kimi dövlətlərin tanınmış şirkətlərinin cəlb edilməsi hesabına neft sənayesinə qoyulan sərmayənin sürətlə artması, "Azəri-Çıraq-dərinsulu Günəşli", "Şah dəniz" yataqlarından neft, qaz və kondensatın hasil edilməsindən, tikintisi başa çatdırılmış BTC və CQB Kəmərləri ilə neft-qaz ixracından əldə edilən gəlirlər tezliklə Azərbaycanın iqtisadi göstəricilərinə öz təsirini göstərdi.

İqtisadi inkişafın mərhələləri sırasında 1991-1995-ci illəri əhatə edən tənəzzül dövrü 1995-2003-cü illəri əhatə edən dərin iqtisadi islahatlar, keçid və bərpa dövrü ilə əvəz olmağa başladı. Qeyd etmək lazımdır ki, 1994-cü illə müqayisədə 2003-cü ildə respublikada ümumi daxili məhsul 3,2 dəfə, adambaşına ÜDM-nin həcmi 2,8 dəfə, qeyri-neft sektoru 2,6 dəfə artmış, orta illik iqtisadi artım 12,9 faiz təşkil etmişdir. 1994-cü ildə maliyyə ehtiyatları tükənmiş Azərbaycanın artıq 2003-cü ildə 1,2 mlrd. dollar valyuta ehtiyatı yaranmış, 2014-cü ildə bu rəqəm 50 mlrd. dollara çatmış, təkcə 2003-2013-cü illərdə dövlət büdcəsinin gəlirləri 14,2 dəfə, vergi daxil olmaları 7,3 dəfə, dövlət büdcəsinin xərcləri 13,9 dəfə, əhalinin əmanətləri 24 dəfə, bank aktivləri isə 18 dəfə yüksəlmişdir. 2013-cü ildə Mərkəzi Bankın ehtiyatları 14 mlrd.ABŞ dollarını keçmiş,xarici ticarət dövriyyəsi 6,6 dəfə, ixrac 9,3 dəfə, idxal 4,1 dəfə, qeyri-neft ixracı 4,7 dəfə artmışdı. 2003-cü ildə istehsal olunan ÜDM-da adambaşına düşən məhsulun həcmi nominal ifadədə cəmi 873,65 manat (1100 ABŞ dolları) təşkil edirdisə 2014-cüildə bu rəqəm 8 min dollara yaxınlaşmışdı. 2003-cü ildə ölkə iqtisadiyyatına qoyulmuş investisiyaların ümumi həcminin yalnız 26,8 faizi daxili mənbələrdən maliyyələşirdisə 2013-cü ildə daxili investisiyaların ümumi çəkisi 62,5 faizə çatmışdı. Ümumilikdə, 2004-2013-cü illərdə daxili investisiyalar 14,6 dəfə, qeyri-neft sektoruna investisiyalar





12,9 dəfə artmış, regionlara bütün mənbələr hesabına 50,7 mlrd. manat vəsait yönəldilmişdir (3,s.31).

Davos Ümumdünya İqtisadi Forumunun hesablamaları ilə müəyyən edilmişdir ki, ölkələrin iqtisadiyyatlarının rəqabət qabilliyyətliliyinə görə Azərbaycan 2003-cü ildə 125 ölkə arasında 64-cü yerdə olduğu halda 2017-ci ildə 137 ölkə arasında 35-ci yerə yüksəlmiş, MDB-də isə birinci olmuşdur. Ölkə ilk dəfə dünyanın "yuxarı orta gəlirli" və "yüksək insan inkişafı" ölkələr qrupuna daxil edilmişdir. Bu müddət ərzində respublikada yoxsulluğun səviyyəsi 2001-ci idə 49 faizdən 2016-cı ildə 4,9 faizə qədər azalmışdır. "Fitch Ratinq`s", "Standart and Poor`s" və "Moody`s" kimi reytinq agentlikləri Azərbaycana investisiya krediti reytinqi vermiş və Azərbaycan Qafqaz ölkələri arasında investisiya reytinqinə malik yeganə ölkə olmuşdur (3,s.31) .

Neft gəlirlərinin düzgün istiqamətləndirilməsi, əhalinin rifah halının yüksəldilməsi və neft sektorunda şəffaflığın təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 29 dekabr 1999-cu il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Dövlət Neft Fondunu təsis etdi. Bu Fond vasitəsilə gəlirlər strateji əhəmiyyətli infrastrukturların yaradılmasına, mühüm sosial problemlərin həllinə yönəldildi. Eyni zamanda Neft Fondu əhalinin təxirəsalınmaz sosial problemlərini həll etməklə yanaşı, gəlirlərin gələcək nəsillərə ötürülməsinə imkan yaratdı. 2015-ci ildə Neft Fondunun mədaxili 124.9 mlrd. dollar təşkil etmişdir ki, bunun da 26,9%-i yığımlara yönəldilmişdir.2003-2015-ci illərdə ARDNF-nin dövlət büdcəsinə transferləri 63.9 mlrd.manat təşkil etmiş, bu transferlər hesabına ölkədə məcburi köçkünlər üçün 92 yaşayış kompleksi, həmçinin 48 min 300 mənzil tikilərək 245 min insan bu mənzillərə köçürülmüşdür. 2003-2017-ci illərdə ölkədə 642 xəstəxana, 3100 məktəb, 43 idman kompleksi, 12,3 min km uzunluğunda yollar salınmış, 443 körpü və yol qovşağı inşa edilmişdir (6,s.1).

Şübhəsiz ki, Azərbaycanın makroiqtisadi göstəricilərində müşahidə edilən kəskin artımların əsasında BP və tərəfdaşlarının uğurla həyata keçirdiyi neft strategiyası dayanır. Bunun nəticəsidir ki, 2014-cü ildə neft-qaz sektorunun ÜDM-də payı orta hesabla 45-50 faiz, büdcə gəlirlərində 70-75 faiz, ixracda payı isə 90 faiz olmuşdur. Neft sektorunun iqtisadiyyatda böyük paya sahib olmasına baxmayaraq, bu illərdə qeyri-neft sektoru da

sürətlə inkişaf etməyə başlamış, gələcəkdə ölkənin neftdən asılılığının aradan qaldırılması bir məqsəd kimi qarşıya qoyulmuşdur(6,s.1).

Azərbaycanın enerji siyasəti BP və tərəfdaşları ilə əməkdaşlıq sayəsində hazırda da uğurla davam etdirilir. Heydər Əliyevin neft strategiyası Azərbaycanı 2006-cı ilə qədər Rusiyadan qaz idxal edən ölkədən 2007-ci ildə qaz ixrac edən dövlətə çevirdi. Artıq Azərbaycan enerji təhlükəsizliyinin təmin edilməsində Avropanın əsas tərəfdaşlardan birinə çevrilməkdədir. 45 mlrd. dollar dəyərində olan "Şahdəniz-2" layihəsinin gerçəkləşdirilməsi, TANAP və TAP kəmərlərinin tikintisi ölkəmizin yaxın gələcəkdə Avropanın qazla təmina-tında yeni statusunu müəyyən edəcəkdir. Bu layihə BP və Azərbaycan Respublikasnın imza atdığı ən çətin və bahalı bir layihə olmaqla yanaşı, həm də Azərbaycan üçün neft-qaz sənayesində yeni eranın başlanğıcıdır. Belə ki, artıq Azərbaycan özünün və tərəfdaşlarının hasil etdiyi neft-qaz məhsullarının xarici bazarlara çıxarılması və ixrac marşrutlarının şaxələndirilməsi sahəsində Xəzəryanı ölkələr içərisində ən əlverişli mövqeyə malik olması və Avrasiyanın strateji əhəmiyyətli tranzit ölkələrindən biri kimi Şərq–Qərb ticarət, enerji, yanacaq və nəqliyyat-kommunukasiya xətlərinin mərkəzində yer alması ilə çox şaxəli əməkdaşlıq məkanına çevrilməkdədir (7,s.1).

Maliyyə imkanlarının genişlənməsi Azərbaycana hərbi gücünün artırılması, strateji əhəmiyyətli regional investisiya, infrastruktur və nəqliyyat layihələrinin icrasının maliyyələşdirilməsi imkanını yaratmış, regiondakı siyasi və iqtisadi mövqeyini daha da möhkəmləndirmişdir.

Azərbaycan Respublikasının BP və tərəfdaşları ilə əməkdaşlığının ən mühüm nəticələrindən biri də Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) "Əsrin müqaviləsi" nin həyata keçirilməsi prosesində tədricən formalaşması, BP texnologiyası, təcrübə və bacarıqlarından yararlanmaqla inkişaf etməsi sayəsində SOCAR adı ilə beynəlxalq aləmdə bir neft şirkəti kimi tanınması oldu (5,s.856). Hazırda SOCAR xarici neft şirkətlərilə birgə yaradılmış 16 əməliyyat şirkəti, 26 birgə müəssisə, 41 törəmə müəssisəsi, 8 asılı müəssisə ilə Azərbaycanın energi ehtiyatlarının işlənməsindəki uğurlu fəaliyyətini davam etdirir(4,s.6).Bu gün SOCAR Böyük Britaniya, İsveçrə, Almaniya, Avstriya, Rumıniya, Türkiyə, Ukrayna, Gürcüstan, İran kimi ölkələrin paytaxtlarında öz nümayəndəliklərini açmış, Rumıniya və Türkiyədə neft-kimya emalı komplekslərinin yaradılmasında mühüm işlər görmüşdür. Xüsusilə də Türkiyə hökuməti tərəfindən özəlləşdirilməyə çıxarılmış Petkim zavodunun 51 faizlik səhm paketinin "SOCAR Turkey Petrokimya A.Ş.", 5,32 faizinin isə "SOCAR Turkey Energy" tərəfindən alınması və burada ikinci bir neft-kimya kompleksinin inşa edilməsi müstəqil Azərbaycanın çox böyük uğuru kimi qiymətləndirilir. Bu günədək Azərbaycan tərəfindən 18 mlrd. dollar sərmayə qoyulmuş bu kompleksdə "Star" neft emalı zavodu 2018-ci ilin 19 oktyabrında istifadəyə verildi. Layihənin ümumi investisiya dəyəri 6,3 mlrd. ABŞ dolları təşkil edir.2020-ci ilədək "Petkim" və "Star"a qoyulacaq sərmayənin həcmi 20 mlrd. dollara çatacaqdır.Bu kompleks Türkiyəni dizel və aviasiya yanacağı ilə təmin etməklə yanaşı, istehsal ediləcək digər 6 növdə neft məhsulunun bir hissəsini isə Avropa bazarlarına çıxaracaqdır ( 9,s.1).

BP və tərəfdaşlarının "Əsrin müqaviləsi" və "Şah-dəniz" layihəsinin icrasında Azərbaycan Respublikası ilə qurduğu əməkdaşlığın ən önəmli nəticələri sırasında BP standartları səviyyəsində milli neftçi kadrların hazırlanması oldu. Qeyd etmək lazımdır ki, neft sənayesində milli işçi qüvvəsinin hazırlanması, bu mütəxəssislərdən neft-qaz layihələrinin həyata keçirilməsində istifadə olunması məsələsi 1994-cü ilin 20 sentyabrında imzalanmış "Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Saziş"in Vl maddəsində nəzərdə tutulmuşdur. Açılan iş yerlərinin Azərbaycan vətəndaşları ilə komplektləşdirilməsinə dair BP və tərəfdaşlarının öhdəliyinin icrası işlərin həcminin artmasına müvafiq olaraq üç mərhələdə təmin edilmişdir. Əgər 1994-cü ilin oktyabrında BP şirkətinin Bakıda İçərişəhərdəki ofisində 5 əcnəbi və 20 nəfər əsasən texniki heyətdən ibarət olan yerli işçi ilə işləyirdisə, 1996-ci ilin avqustunda artıq Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti 409 nəfəri, subpodratçılar isə 1000- dən artıq milli kadrı işə qəbul etmişdi. 2003-cü ildə təkcə "Azəri-Çıraq-Günəşli" layihəsinində, plaformalarda işə qəbul edilmiş Azərbaycan vətəndaşlarının sayı 967 nəfər idi. 2004-cü ilin dekabr ayında boru kəmərlərinin çəkildiyi müddətdə üç ölkə ərazisində çalışan 17 min nəfərdən 2500 nəfəri Azərbaycan vətəndaşları idi. 2014-cü ildə BP-Azərbaycan şirkətində çalışan daimi əməkdaşların sayı ən yüksək həddə - 3393 nəfərə çatdı ki, onlardan da 2907 nəfəri yerli əməkdaşlardan, 415 nəfəri isə əcnəbi mütəxəssislərdən ibarət olmuşdur. Bunların da çoxu-275 nə-

fəri rəhbər vəzifələrdədir (10,s.32). Onu da qeyd etmək lazımdır ki, BP ştatında olan işçilərin sayı son üç ildə neftin qiymətinin sürətlə düşməsi ilə əlaqədar heyətin optimallaşdırılması sayəsində azalmışdır. 2015-ci ildən başlayaraq aparılmış islahatlar nəticəsində şirkətdə yerli mütəxəssislərin sayı azalsa da ixtisaslı işçilərin milli kadrlardan ibarət olması öhdəliyinə uyğunluq 90 faizə çatmışdır. BP-nin subpodratçı təşkilatlarında işləyən azərbaycanlı işçilərin sayı isə 10 min nəfərdən çoxdur. İxtisası olmayan işçilər isə artıq Sazişdə nəzərdə tutulmuş öhdəliyə uyğun olaraq 100 faiz yerli vətəndaşlardan ibarətdir ( 8 ,s.15) .

Şirkətin regional rəhbər heyətinə 6 nəfər azərbaycanlı vitse-prezident də daxildir. 2009-cu ilin sentyabrında BP-nin Azərbaycan, Gürcüstan və Türkiyədəki biznesinə rəhbərlik azərbaycanlı Rəşid Cavanşirə etibar edildi.O, BP-Azərbaycan şirkətinin prezidenti təyin olundu.2013-cü ildən isə R. Cavanşir BP-nin London Baş ofisində strategiya və inteqrasiya üzrə Baş vitse-prezident vəzifəsinə təyinat aldı .

Beləliklə, Heydər Əliyevin neft strategiyasının BP və tərəfdaşları tərəfindən icra edilməsi sayəsində Azərbaycanın əldə etdiyi iqtisadi yüksəliş ölkənin sosial-iqtisadi tərəqqisini təmin etməklə yanaşı, həm də Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya olunmasına, ölkənin beynəlxalq nufuzunun yüksəlməsinə şərait yaratdı.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. AzərbaycanRespublikasının Qanunlar Külliyatı.6cilddə.ll c.Bakı: Qanun, 1997, 616 s.
2. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri(1991-2016).Bakı, "Poliart"MMC,2017,904 s c
3. Azərbaycanın statistik göstəriciləri.Qurtuluşdan tərəqqiyə.Bakı:2018, 762 s.
4. SOCAR, 2015, illik hesabat, Bakı: 2015, 170 s.
5. Даниел Ергин.Добыча.Москва:алпина паблишер,2012, 943с.
6. http://wordmedia.az/news.aspx? -id =2084
7. http://strategiya.az/old/?m=xeber cid=14106
8. http://bp.com/az_az/caspian/aboutus/legalagreements.html
9. http://fins.az/aqrar/906168/socar-in-turkiyede-tikdiyi-zavodun-achilis-
10. BP-Azərbaycanda.Davamlı inkişaf haqqında hesabat.Bakı:S.M.G.Ltd.2015,s 79






## INFLUENNCE OF COOPERATION WITH BP AND ITS PARTNERS ON SOCIAL-ECONOMIC DEVELOPMENT OF AZERBAIJAN REPUBLIC
## SUMMARY


The article states that the signing of the "Contract of the Century" on September 20, 1994 created international recognition of the Republic of Azerbaijan, its independence and integration into the world economic system. The long-term decline in the socio-economic and socio-economic life of Azerbaijan has been replaced by an economic leap.

In the article, the impact of cooperation with BP and its partners on the country's socio-economic life was grounded in numbers. Due to the increase in gross domestic product, state budget revenues, tax revenues, bank assets, savings of the population and standard of living since 2003, Azerbaijan ranks 35th out of 137 countries in 2017 according to the results of the Davos World Economic Forum and the factors that led to this development, have been evaluated.


## ВЛИЯНИЕ СОТРУДНИЧЕСТВА С BP И ЕЁ ПАРТНЁРАМИ НА СОЦИАЛЬНО ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
## РЕЗЮМЕ


В статье отмечается, что подписание « Контракта века» 20 сентября 1994 года сыграло большую роль в признании Азербайджанской Республики на международной арене, в укреплении её независимости и интеграции в международную экономическую систему.

В связи с реализацией «Контракта века» BP и её партнёрами в Азербайджане впервые после общественно-политического и социально- экономического кризиса 1991-1995 годов произошел резкий экономический скачок. В статье данный скачок обоснован конкретными цифрами. Увеличение начиная с 2003 года объёма внутренного валового продукта, поступлений в государственный бюджет, налоговых отчислений, банковских активов, депозитов населения, а также повышение уровня жизни населения отразились в отчётах Давосского Экономического форума 2017 года, где Азербайджан занял 35 место среди 137 стран.